**Bilik müsabiqəsi**

Ölkəmizin iqtisadi həyatında gənclərin fəal iştirakının təmin olunması üçün gələcəyin potensial vergi ödəyiciləri olan gənc nəslin, o cümlədən orta məktəb şagirdlərinin vergilər haqqında anlayış və biliklərinin artırılması, onlara vergi mədəniyyətinin aşılanması Vergilər Nazirliyinin qarşısında duran əsas vəzifələrdəndir. Məhz bu məqsədlə Vergilər Nazirliyi tərəfindən bir sıra tədbirlər həyata keçirilir, müxtəlif yaş qrupları üzrə tədris vəsaitləri nəşr edilir. Vergilər Nazirliyi əməkdaşlarının hazırladıqları «Vergilərin əhəmiyyəti və yeddi nağıl axşamı» və «Vergilər» kitabları Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiq edilmişdir. Orta məktəb şagirdlərinə pulsuz paylanılmış bu kitablar gənc nəslin erkən yaşlarından vergi mədəniyyətinə alışdırılmasında müstəsna rolu vardır. Məktəblilər arasında ənənəvi olaraq təşkil edilən bilik müsabiqələri isə uşaqların bu sahədə əldə etdikləri bilik, bacarıq və vərdişləri ortaya qoymasına imkan yaradır, şagirdlər arasında vergi təbliğatının aparılmasını stimullaşdırır. Artıq 7-ci ildir ki, Bakı şəhərinin orta məktəblərində şagirdlər arasında vergilər mövzusunda bilik müsabiqəsi keçirilir. Aprelin 26-da Bakıdakı 46 saylı orta məktəbdə vergilərə aid biliklərin mənimsənilməsində yüksək nailiyyətlər əldə etmiş şagirdlərin stimullaşdırılması məqsədilə Bakı məktəbliləri arasında növbəti bilik müsabiqəsi keçirilmişdir. Test imtahanı ilə aparılan müsabiqənin yekunlarına görə, 3 yaş qrupu üzrə birinci, ikinci və üçüncü yerlərin qaliblərinə diplomlar və qiymətli hədiyyələr təqdim edilmişdir.
Tədbirin təşkilatçısı olan Bakı Şəhər Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elman Dadaşov qeyd etmişdir ki, orta məktəblərdə keçirilən bu cür tədbirlər şagirdlərdə vergilərin öyrənilməsinə stimul yaratmaqla bərabər, vergi orqanlarına, o cümlədən məktəb rəhbərliyinə vergilərə dair dərs vəsaitlərinin tədrisinin səviyyəsini müəyyənləşdirməyə imkan verir. Müsabiqənin keçirilməsi bir daha təsdiq etdi ki, uşaqlar arasında iqtisadi anlayışların qavranılmasına maraq ildən-ilə artır: «Bugünkü uğurların əldə edilməsində ən böyük zəhmət isə müəllimlərin üzərinə düşür. Bu sahədə orta məktəb müəllimləri böyük fədakarlıq nümunəsi göstərirlər».
46 saylı orta məktəbin direktor müavini İlyas Məmmədov demişdir ki, son zamanlar Vergilər Nazirliyi tərəfindən orta məktəblərdə aparılan güclü maarifləndirmə işləri, eləcə də bütün məktəblərdə yaradılan metodiki kabinetlər şagirdlərin vergilərlə bağlı anlayışlarının xeyli zənginləşməsinə şərait yaratmışdır. Məktəblərdəki vergilərə aid metodiki kabinetlər Vergilər Nazirliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır, bu kabinetlər mütəmadi olaraq texniki və əyani vəsaitlərlə təmin olunur. O, bu işlərin davam etdirilməsini arzuladığını bildirmişdir: «Bu tədbirlər şagirdlərin vergilər haqqında biliklərinin artmasına, onların gələcəyin intizamlı və savadlı vergi ödəyicisi kimi formalaşmasına müsbət təsir göstərir».
Əhdim Məmmədzadə (müsabiqənin qalibi, 149 saylı məktəbin şagirdi): «Müsabiqədə ikinci dəfədir iştirak edirəm. İlk dəfə ikinci yeri qazanmışdım. İndi birinci yerə layiq görüldüm. Bu bilik yarışmasında qazandığım ilk böyük uğuruma çox sevinirəm və uğurlarımın davamı olacağına əminəm. Çünki növbəti müsabiqədə də iştirak etmək niyyətindəyəm».
Nigar Fərzəliyeva (müsabiqənin qalibi, 139 saylı məktəbin şagirdi): «Müsabiqədə ikinci yeri tutmuşam. Əlbəttə, arzum birinci yerə layiq olmaq idi. Lakin bu nəticəyə də sevinirəm. Növbəti müsabiqədə hədəfim yalnız birinci yer olacaq. Bütün şagird yoldaşlarımı bu bilik müsabiqəsinə dəvət edirəm. Biz yarışa-yarışa çox şey öyrənirik».

A.İBRAHİMOVA